Vergilər nazirinin “31” iyul 2015-ci il tarixli 1517040101100100 nömrəli əmrinə 2 saylı Əlavə

**Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə biliklərinin qiymətləndirilməsi üçün test tapşırıqlarının tərtibi və ekspertizasına dair Metodiki Tövsiyələr**

## I. Ümumi müddəalar

1.1. “Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə biliklərinin qiymətləndirilməsi üçün test tapşırıqlarının tərtibi və ekspertizasına dair Metodiki Tövsiyələr” (bundan sonra - Metodiki Tövsiyələr) Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 90 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi”nə, Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100758700 nömrəli əmri ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının Vergilər Nazirliyinin tədris konsepsiyası”na və “Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili Qaydaları”na, eləcə də digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Metodiki Tövsiyələrin məqsədi dövlət vergi orqanlarının vəzifəli şəxslərinin bilik və peşə hazırlığı səviyyələrinin qiymətləndirilməsi üçün test tapşırıqlarının tərtibinə dair tələbləri və onların ekspertizası üsullarını müəyyən etməkdən ibarətdir.

## II. Test tapşırıqlarının hazırlanması üçün ümumi tələblər

2.1. Test tapşırıqlarının tərtib olunması zamanı onların məzmununun aşağıdakı tələblərə cavab verməsi tövsiyə olunur:

2.1.1. nəzəri biliklərin praktiki tətbiqi ilə bağlı olması;

2.1.2. mövzuların məzmununu tam əhatə etməsi;

2.1.3. mövzuların mahiyyətinə və məzmununa dair müddəaları açmağa imkan verməsi;

2.1.4. düşündürücü xarakter daşıması;

2.1.5. mümkün qədər yığcam, dəqiq, birmənalı və aydın ifadə olunması;

2.1.6. cavab variantlarının söz həcminə və ya digər təsvir vasitələrinə görə bir-birilə mütənasib olması.

2.2. Test tapşırığı sualdan (şərtdən) və dörd cavab variantından ibarət olmalı, bu variantlardan yalnız biri düzgün cavab olmalıdır. Test tapşırığının hazırlanmasında istifadə olunan mənbə dəqiq göstərilməlidir (ədəbiyyat və onun səhifəsi, yaxud normativ akt və onun maddələri və ya bəndləri). Test tapşırığının tərtibi nümunəsi bu Metodiki Tövsiyələrə 1 nömrəli əlavədə göstərilmişdir.

2.3. Mövzunun həcmindən və mürəkkəblik dərəcəsindən asılı olaraq hər tədris saatı üçün azı 20 test tapşırığı tərtib edilir.

2.4. Hər bir mövzu üzrə test tapşırıqları çətinlik dərəcəsinə görə qruplaşdırılır (“sadə”, “orta” və “mürəkkəb”). Hər bir mövzu üzrə test tapşırıqlarının ümumi sayının 40 faizinin sadə, 40 faizinin orta, 20 faizinin isə mürəkkəb dərəcədə hazırlanması tövsiyə edilir.

## III. Test tapşırıqlarının ekspertizası

3.1. Test tapşırıqları kursun tədris-mövzu planı təsdiq olunduqdan sonra təlimçilər tərəfindən hazırlanır və onların bu Metodiki Tövsiyələrdə nəzərdə tutulmuş tələblərə uyğunluğunun müəyyən edilməsi üçün Vergilər Nazirliyinin əmri ilə yaradılan işçi qruplara kursun başlanması tarixindən azı 45 gün əvvəl təqdim edilir.

3.2. Test tapşırıqlarının ekspertizasının həyata keçirilməsi üçün yaradılan işçi qruplara insan resursları sahəsində təşkilati və nəzarət tədbirlərini həyata keçirən struktur vahidin və Tədris Mərkəzinin əməkdaşları, eləcə də Vergilər Nazirliyinin aidiyyəti struktur vahidlərinin və bölmələrinin təlim təcrübəsi olan peşəkar mütəxəssisləri daxil edilir. Zərurət yarandığı təqdirdə kənar təşkilatlardan mütəxəssislər cəlb oluna bilər. Test tapşırıqlarını hazırlamış təlimçi və ya təlimçilər işçi qrupun həmin test tapşırıqlarının müzakirəsində iştirak edirlər. İşçi qrupun üzvləri 10 gün ərzində test tapşırıqlarını ekspertizadan keçirməlidirlər.

3.3. Test tapşırıqlarının ekspertizası zamanı aşağıdakı meyarlar əsas götürülür:

3.3.1. mövzunu əhatə etmə səviyyəsi;

3.3.2. çətinlik dərəcələrinə uyğunluğu;

3.3.3. təlimdə verilən biliklərin qiymətləndirilməsi üçün kifayətliliyi;

3.3.4. təcrübi bacarıqların (nəzəri biliklərin praktiki tətbiqi) qiymətləndirilməsi üçün kifayətliliyi;

3.3.5. düzgün, aydın və birmənalı tərtib edilməsi və s.

3.4. İşçi qrupun üzvləri test tapşırıqlarının bu Metodiki Tövsiyələrlə müəyyən edilən meyarlara uyğunluğunu hər meyar üzrə aşağıdakı ballarla qiymətləndirirlər:

3.4.1. 5 - “yüksək”;

3.4.2. 4 - “yaxşı”;

3.4.3. 3 - “orta;

3.4.4. 2 - “zəif”.

3.5. Test tapşırıqlarının hər bir meyara uyğunluq səviyyəsi işçi qrupun üzvlərinin həmin meyar üzrə verdiyi balların cəminin qiymətləndirmədə iştirak edən üzvlərin sayına nisbəti kimi müəyyən edilir. Qiymətləndirmədə işçi qrupun üzvlərinin azı 2/3-si iştirak etməlidir.

3.6. Test tapşırıqlarının hər bir meyar üzrə uyğunluq səviyyəsi 3,6 baldan yüksək olduqda, onun qiymətləndirmədə istifadəsi məqsədəuyğun hesab edilir. Hər hansı bir meyar üzrə uyğunluq səviyyəsi 3,6 baldan az olduqda, həmin meyar üzrə nöqsanların aradan qaldırılması üçün təlimçilərə işin həcmindən asılı olaraq vaxt verilir. Düzəldilmiş test tapşırıqları ekspertiza üçün yenidən işçi qrupa təqdim edilir.

3.7. Test tapşırıqlarının yekun qiymətləndirilməsinin nəticələri 3,6 baldan az olduqda onların hazırlanması başqa təlimçiyə həvalə olunur.

3.8. İşçi qrupun müsbət rəyini almış test tapşırıqları kursun başlanmasından 10 gün əvvəl biliklərin qiymətləndirilməsində istifadə edilməsi üçün Tədris Mərkəzinə təqdim edilir.

## IV.Yekun müddəalar

4.1. Test tapşırıqlarının hazırlanması, ekspertizasının keçirilməsi və test bazasında saxlanılması ilə əlaqədar məxfilik rejimi bu prosesdə iştirak edən şəxslər tərəfindən təmin edilməlidir.

“Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə biliklərinin qiymətləndirilməsi üçün test tapşırıqlarının tərtibi və ekspertizasına dair Metodiki Tövsiyələr”ə 1№-li əlavə

Test tapşırığının nümunəsi

#1.
Vergi ödəyicisinin ailə üzvlərinə aşağıdakılardan hansılar aiddir?

1. ər-arvadlar, bacı və qardaş övladları
2. ər-arvadların bacıları, qardaşları və valideynləri
3. bacıların ərlərinin və qardaşların arvadlarının valideynləri
4. valideynlərin bacılarının [qardaşlarının] övladları
5. bacıların ərləri və qardaşların arvadları

*A) 1, 2, 5
B) 2, 3, 4
C) 3, 4, 5
D) 1, 3, 5

*Mənbə:* - *Vergi Məcəlləsinin 13.2.7-ci maddəsi*
*Çətinlik dərəcəsi*: - *sadə*

Qeyd: Test tapşırığının düz cavabı * (ulduz) işarəsi ilə qeyd edilir.